


GÜLDANƏ MEHDİYEVA

Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Pedaqoji Tədqiqatlar Mərkəzinin Təşkilati şöbəsinin baş mütəxəssisi


# AZƏRBAYCAN DİLİ TƏDRİSİNİN TARİXİ


## Xülasə:

Məqalədə Azərbaycan ədəbi dilinin formalaşmasının tam sabitləşməsi dövrü və geniş inkişaf yolu keçməsi mühüm yer tutur. Əsasən dilimizin saflığının inkişafı və qorunmasından bəhs olunur.


**Açar sözlər:** *Azərbaycan dili, ədəbi dili, dilin tarixi, dilin saflığı, dilin qorunması*

*"Ana dili! Nə qədər rəfiq, nə qədər ali bir kəlmə, nə qədər möhtərəm, müqəddəs, nə qədər əzmli bir qüvvə! Ana dili! Bir dil ki, mehriban bir vücud öz məhəbbətini, şəfqətini sənə o dildə bəyan edibdir, bir dil ki, sən hələ beşikdə ikən bir lay-lay şəklində öz ahını və lətafətini sənə eşitdirib, ürəyinin ən dərin guşəsində nəşr bağlayıbdır. Cisim və ruhunun möhtac olduğu məvadi (qidanı) o dildə tələb edibsən. Bir dil ki, ibtida o dildə yaxşı-yamanı bilibsən, səni yaradanı tanıyıbsan. Haman dil ki, diyari-qürbətdə biganələr içinə düşəndə, ona həsrət qalırsan..."*

***N.Nərimanov***

Ana dilinin inkişaf problemi tarixən mütəfəkkirləri, yazıçı və pedaqoqlarımızı çox düşündürmüşdür. Vaxtilə M.F. Axundov, H. B.Zərdabi, S.Ə. Şirvani, A.S.Mehdizadə, M.Ə. Sabir, C.Məmmədquluzadə və başqaları ana dilinə yüksək qiymət vermiş, bu dildə məktəb açmaq, yeni əlifba və dərsliklər hazırlamaq, ana dili təliminin inkişafı haqqında fikirlər söyləmişlər.

XIX əsr xalqımızın ictimai-iqtisadi və mədəni həyatında yeni dövr təşkil etdiyi kimi, ədəbi dilimizin inkişaf tarixində də xüsusi mərhələ yaradır. Azərbaycan ədəbi dili tarixi üzrə dövrləşdirmə aparan tədqiqatçıların demək olar ki, hamısı XIX əsri ayrıca bir mərhələ kimi götürmüş və ədəbi dilin inkişaf tarixində, müasir ədəbi dil normalarının müəyyənləşməsi və sabitləşməsi prosesinin başlanğıc dövrü kimi səciyyələndirmişlər.

Azərbaycan ədəbi dilinin tarixi, o qədər də sistemli və ardıcıl olmayan bir sıra təşəbbüsləri nəzərə almasaq, XXəsrin 30-cu illərindən etibarən araşdırılmağa başlanılmışdır. Ümumiyyətlə, müşahidələr göstərir ki, Azərbaycan ədəbi dil tarixi sahəsində aparılmış araşdırmalar aşağıdakı mərhələlərdən keçmişdir:

1. 30-50-ci illər;
2. 60-80-ci illər;
3. 80-ci illərdən sonra…

Birinci mərhələdə ən çox prof. Əbdüləzəl Dəmirçizadənin araşdırmaları diqqəti cəlb edir və elə buna görə də həmin mərhələni "Dəmirçi-

zadə mərhələsi" adlandırmaq mümkündür: bu zaman Azərbaycan ədəbi dilinin tarixi ancaq ən mühüm mənbələr ("Kitabi-Dədə Qorqud", İ.Nəsimi, M.Füzuli, M.P.Vaqif…) əsasında öyrənilir, normanın təkamülündən çox, janr-üslub proseslərinə diqqət yetirilir.

İkinci mərhələdə - Azərbaycan ədəbi dilinin tarixi daha geniş mənbələr əsasında öyrənilməyə başlanılır, hər il yeni-yeni əlyazmaları tapılıb araşdırılır.

Üçüncü mərhələdə 80-ci illərin ortalarından başlayır və bu gün həmin mərhələnin özünəməxsus keyfiyyətləri müəyyənləşir.

Müasir Azərbaycan ədəbi dilinin inkişaf səviyyəsi əsrlərin məhsuludur.

Ədəbi dilimiz tarix boyu mürəkkəb inkişaf prosesi keçmişdir. Bu inkişaf dövri aşağıdakı kimidir.

**I dövr -** Azərbaycan ədəbi dilinin formalaşması və inkişaf dövrü (V-XVIII əsrlər)

**II dövr -** Azərbaycan ədəbi dilinin tam sabitləşməsi dövrü (XIX əsr)

**III dövr -** Azərbaycan ədəbi dilinin geniş inkişaf yolu keçməsi dövrü (XX əsrin əvvəllərindən bu günə kimi)

Azərbaycan dilinin tədrisi tarixini əslində "Kitabi-Dədə Qorqud"dan, İzzəddin Həsənoğludan başlanıb bu günə qədər davam edən ədəbi dilimizin inkişaf tarixində axtarmaq lazımdır.

Ə.Dəmirçizadənin "Ədəbi dil seçmə və əvəzetmə əməliyyatı aparmaqla normaya salınmış dildir" ifadəsindən çıxış etsək, dilimizin mənimsədilməsi bu "seçmə", "əvəzetmə" əməliyyatlarının aparıldığı zamanla bağlıdır.

Şifahi və yazılı olmaqla özünü təsdiqləyən ədəbi dilmiz bu iki istiqamətin paralel inkişafında öz müvazinətini qoruyub saxlamışdır.

Orxan Yenisey kitabələri, "Kitabi Dədə Qopqud", Mahmud Kaşğarinin "Divanü-lüğat-it-türk" əsəri, Nəsimi, Xətai, Kişvəri və Füzulinin əsərləri yazılı ədəbi dilimizin ilk nümunələridir.

Yusif Balasaqulunun "Kütadqu bilik" mənzuməsini, XIVəsrdə yazıldığı güman edilən "İbn- Mühənna" lüğətini, M.F.Axundov, Mirzə Kazım bəy, M.Əfşar və digərlərinin də dil haqqında mülahizələrini, əsərlərini buraya daxil etsək ədəbi dilimizin inkişaf tarixini özündə əks etdirən böyük bir siyahı alınar.

Bütün bunları deməkdə məqsədimiz odur ki, məktəb və dil təlimi prosesi çox dərin köklərə malikdir.

XIX əsrə qədər Azərbaycanda tədris müəssisələri ibtidai təhsil verən mollaxana və ali təhsil verən mədrəsələr olmaqla iki hissəyə bölünürdü.

Bu təlim müəssisələrində öyrədən rolunda mollalar, xəlfələr (molla köməkçisi) çıxış edirdi. Burada müxtəlif yaş qrupuna aid uşaqlar İrandan gətirilmə, daş çapında hazırlanmış çərəkə üzrə ərəb əlifbasını öyrənir, ərəbcə kiçik mətnlər oxuyub tamamladıqdan sonra Quranı əzbərləyirdilər.

Əsrin sonunda Azərbaycanın müxtəlif yerlərində məktəblər açılmağa və sövti (avaz) üsulu ilə dərslər aparılmağa başlanır. Şuşada, Şamaxıda, Lənkəranda, Naxçıvanda yeni tipli Üsuli- cədid"(yeni metod) məktəbləri fəaliyyət göstərir.

Seyid Əzim Şirvaninin Şamaxı şəhərində açdığı "Məclis" (1870), Sultan Məcid Qənizadə və Həbib bəy Mahmudbəyovun birlikdə açdığı rus-tatar (1887), Məmmədtağı Sidqinin Ordubad şəhərində yaratdığı "Əxtər" (1892), Mirzə Həsən Rüşdiyyənin 1895-ci ildə açdığı məktəb yeni tipli tədris ocaqları idi.

Bu məktəblər mollaxanalardan fərqli idi. Burada dərslər Azərbaycan dilində keçirilir, rus dili isə ayrıca fənn kimi saxlanılırdı. İlk dəfə uşaqlar elmlərin əsaslarını ana dilində bu məktəbdə öyrənirdilər.

Böyük mütəfəkkir, publisist və dramaturq M.F.Axundzadə 1853-cü ildə yazmışdır: "... hələlik bu sahədə sabit bir qayda-qanun olmadığına görə mən indiyə qədər azərbaycanlıların öz tələffüzlərində işlətdikləri əlamətləri, vurğular və sairəni əsas qəbul etmişdi. Təlimin

ərəb və fars dillərində aparılması M.F. Axundovu çox narahat edirdi. Bu çətinlikləri hiss edən M.F. Axundov 1839-cu ildə ilk dəfə ana dilində "Əlifba" dərsliyi tərtib etmişdir.

M.F. Axundovdan sonra Qori müəllimlər seminariyasının Azərbaycan (tatar) şöbəsinin müdiri A.O. Çernyayevski "Vətən dili" adlı dərslik yazır, öz tələbəsi Rəşid bəy Əfəndiyevə üzünü köçürtdürüb, ana dili dərsliklərinin 1883-cü ildə daş basmasında çap etdirir. Bununla ana dilində dərsliklərin yaranmasına yol açır.

1888-ci ildə Tiflisidə "Vətən dili" kitabının ikinci hissəsi çap olunur. Müəllim A.O. Çernyayevskinin dərslikləri əsasında kənddə uzun müddət müəllimlik edən Rəşid bəy Əfəndiyev 1889-cu ildə "Uşaq baxçası" dərsliyini, 1901-ci ildə isə "Bəşirətül-ətfal" (Uşaqların gözüaçıqlığı) adlı oxu kitabını çap etdirir.

Azərbaycanın qabaqcıl maarifçi və demokratik ziyalıları, görkəmli müəllimləri ana dilində məktəb açmaq, Azərbaycan dilində dərsliklər, ana dilinin tədrisinin metodikasını yaratmaq, əlifba, orfoqrafiya və bu kimi bir sıra məsələləri həll etmək üçün illər boyu mübarizə aparmışlar.

Bu qeyd etdiklərimiz Azərbaycan məktəblərində ana dilinin tədrisi metodikasının ilkin elementləri M.F. Axundov tərəfindən irəli sürülmüşdür.

M.F.Axundov özünün "Əlifba"kitabının əvvəlindəki qeydlərdə (metodik göstərişlərdə) müəllimlərə dərsliklə işləmə yollarını açmışdır.

Sonralar ana dili dərsliklərinin tərtibində və məktəb təcrübəsində böyük rus pedaqoqunun təsiri olmuşdur. Ana dilinin tədrisi haqqında ideyalar, bütövlüklə rus pedaqoji fikri Qori seminariyasını bitirmiş müəllimlər vasitəsilə Azərbaycana yayılmışdır. Bu sahədə Rəşid bəy Əfəndiyev, Firudin bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Əhməd Seyidov və başqalarının böyük xidməti olmuşdur.

Bu işdə Firiudin bəy Köçərlinin xidməti xüsusi yer tutur. O, 35 illik müəllimlik fəaliyyətində ədəbiyyatşünaslıq üzrə ciddi axtarışları ilə yanaşı, Azərbaycan dilinin tədrisinə dair məqalələr də yazmışdır.

1897-ci ildə A.O.Çernyayevskinin ölümündən sonra onun "Vətən dili" dərsliyini yenidən işləyib təkmilləşdirib və nəşr etdirmişdir.

Qədim tarixə malik olan Azərbaycan məktəbi bugünkü inkişaf mərhələsinədək mürəkkəb və şərəfli bir tərəqqi yolu keçmişdir.

A.Abdullayev "Azərbaycan dilinin tədrisi tarixinə dair" monoqrafiyasında Övliyə Çələbinin "Səyahətnamə" əsərindəki məlumata əsaslanaraq yazır: "1647-ci ildə tək Təbrizdə 47 mədrəsə, 600 məhəlli məktəbi, Şamaxı şəhərində isə 47 məhəllə məktəbi var idi. Bu məktəblərdə "Quran" və "Gülüstan"dan istifadə olunurdu.

XIII əsrdə şair Həsənoğlunun xüsusi rolu olmuşdur. Bu dildə yazılan əsərlər saray nümayəndələri tərəfindən pis qarşılanırdı. Belə bir dövrdə Həsnoğlu hər cür təsirə baxmayaraq, Azərbaycan dilində qəzəllər yazırdı.

XIV əsrdə şair İmadəddin Nəsimi ədəbi dilin formalaşmasında xüsusi rol oynamışdır. O, ədəbi dilə əsl Azərbaycan sözlərinin daxil olması üçün səy göstərmişdir.

XVI əsrdə Azərbaycan dili sarayda işlənmiş və onun təsir dairəsi tədricən genişlənmişdir. Bu əsrdə ədəbi dilimizin formalaşması və inkişafında Şah İsmayıl Xətainin xüsusi xidməti olmuşdur. O, Azərbaycan dilinin hətta dövlət dili səviyyəsinə yüksəlməsinə xüsusi səy göstərmişdir.

1832 – Abbasqulu ağa Bakıxanov Bakıda azərbaycanlılar üçün məktəb açmaq məqsədi ilə bir layihə hazırlayır və onu Qafqaz canişin baron V. Q. Rozenə təqdim edir.

Abbasqulu ağa Bakıxanov 1836-cı ildə "Nəsihətnamə" adlı dərslik tərtib etmiş və bu dərslik XX əsrin əvvəllərinə qədər mədrəsələrdə istifadə olunmuşdur. (müəllifin "Mişkatül-Ənvar", "Qanuni-Qüdsi" əsərlərində də dilçilik məsələlərinə geniş yer verilmişdir).

1839-cu ildə isə Azərbaycan ictimai fikir tarixində xüsusi yeri olan görkəmli dilçi alim Mirzə Kazım bəy 556 səhifəlik "Грамматика турецко-татарского языка" adlı qrammatika

dərsliyini nəşr etdirməklə dilçilik elminə böyük töhfə vermişdir.

1844-cü ildə P.M.Budaqov "Турецко-татарский букварь" dərsliyini hazırlayır.

XIX əsrin ikinci yarısında məşhur dilçi və müəllim Xələfli Mirzə Məhəmməd Əfşar "Fənni-sərfi-türki" dərsliyini yazmışdır.

1907-ci ildə M.Abbas Mollazadə 38 səhifə həcmində "Türk dili" yaxud "Türkcə qiraət" adl bir kitab yazıb Gəncədə çap etdirmişdir.

M.Mahmudbəyovun 1907-ci ildə Bakıda nəşr etdirdiyi "Türk əlifbası və ilk qiraət" dərsliyi 1923–cü ilə qədər Azərbaycan məktəblərində dərslik kimi istifadə olunmuşdur.

Görkəmli müəllim və ədib A.Şaiq "Uşaq gözlüyü", "Gülşəni-ədəbiyyat", "Gülzar" dərsliklərini nəşr etdirir və öz əsərlərindən də oxu mətni kimi istifadə edir.

Seyid Əzim Şirvani yaratdığı yeni üsullu məktəbdə dərs dedikdən sonra "Məcmueyi-asari-Hacı Seyid Əzim Şirvani" adlı dərslik tərtib etmiş, onun oğlu atası ölәndən sonra atasının yazdıqlarını sistemləşdirərək 1895-ci ildə Təbriz şəhərində bir kitab kimi nəşr etdirmişdir.

Həsən Səbri Eyvazovun "Üsuli-tədris və təlim-tərbiyə (1906), Hafiz Məmmədəmin Şeyxzadənin "Fəzahət və bəlağət, fənni-inşa və üsuli-kitabət" (1908), Hacı Mirzəağa Mirmöhsünzadənin (Naseh) "Hədiyyətül-ətfal" adlı metodik əsərləri bu günümüzlə səsləşən müddəalarla zəngindir.

Təhsilin milliləşməsi Azərbaycan Demokratik Respublikası dövründə həyata keçirildi. 1 sentyabr 1919-cu ildə Bakı Dövlət Universitetin təsis edilməsi haqqında fərmanın qüvvəyə minməsi, yüz nəfər tələbənin xaricdə təhsil ala bilməsini təmin etmək istəyi, həmin dövrdə yeni və təkrar dərsliklərin nəşri ADR-in xidmətləri idi.

B.Çobanzadə və Ş.Məmmədzadənin birlikdə hazırladığı "Türk dilinin metodikası" (1932), M.Sadıqzadənin "Türk dilinin üsuli-tədrisi" (1926), A.Abdullayev, N.Hacıyev və Y. Əlizadənin həmmüəllifliyi ilə nəşr edilmiş "Orta məktəbdə Azərbaycan dili" dərslik və metodik vəsailəri dövrünün metodik tələblərinə cavab verən nümunələrdir.

1922-ci ildə Azərbaycanda latın əlifbasına keçid üçün Yeni Əlifba Komissiyası yaradılmışdır. Yeni əlifba komitəsi yanında fəaliyyət göstərən elmi şura Bəkir Çobanzadənin rəhbərliyi altında yeni türk əlifbasının layihəsini hazırlamışdır.

XX əsrdə Azərbaycan ədəbi dil inkişafının çox mürəkkəb bir dövrünə qədəm qoyur. Bu dövrdə dilimizə qarşı hücumlar da qüvvətlənmişdir. Dövrünün qabaqcıl adamları doğma dilimizi hər addımda müdafiə edir, onun inkişafına mane olanlarla mübarizə aparırdılar. Bu şəxsiyyətlərdən biri də C. Məmmədquluzadə idi.

1906-cı ildən nəşrə başlayan "Molla Nəsrəddin" jurnalının məqsədi xalqın mənafeyinə xidmət etmək, o cümlədən dilimizi qorumaq və inkişaf etdirməkdən ibarət idi.

XX əsrin əvvəllərində ədəbi dilimizin inkişafında, onun daha da püxtələşməsində, sadələşdirilməsində M.Ə.Sabirin, Ə. Haqverdiyevin və başqalarının da xüsusi rolu olmuşdur.

Azərbaycan dilinin tədrisi metodikası ilə bağlı XX əsrin 20-30-cu illərində Çobanzadənin "Türkoloji qurultayın müəllimlər üçün əhəmiyyəti", Doktor Xəlil Fikrətin "Türkcə tədrisatda sərf və nəhv məsələləri", "Türkcə tədrisin vəzifələləri" və s. məqalələr Azərbaycan dilinin tədrisi metodikası ilə bağlı yazılan ilk əsərlərdəndir.

Lakin Azərbaycan dilinin tədrisi metodikası bir elm kimi XX əsrin 50-ci illərində formalaşmışdır. Azərbaycan dilinin tədrisi metodikası üzrə ilk elmlər namizədi, elmlər doktoru Ağaməmməd Abdullayev olmuşdur.

Azərbaycan dilinin tədrisinin inkişafında Ə.Əfəndizadənin, B.Əhmədovun, Y.Kərimovun, A.Fərəcovun, H.Balıyevin və başqalarının xüsusi xidmətləri olmuşdur. Varisləri tərəfindən bu iş bu gün də davam etdirilir.

Azərbaycan dilçilik elminin üçlüyü kimi tanınan M.Şirəliyev, Ə.Dəmirçizadə və M. Hüseyinzadə həm ali, həm də orta məktəblər üçün dərslik hazırlayıblar.

Professor B.Çobanzadənin yetirməsi – Ə. Dəmirçizadə 1936-cı ildə ibtidai məktəbin III sinfi üçün "Türk dili" adlı ilk kitabı hazırlamışdır. Sonralar Ə.Dəmirçizadə orta məktəblər üçün "Qrammatika"(1938), kar-lallar üçün "Azərbaycan dili" (1941) və "Azərbaycan dili" dərsliklərini hazırlamış, uzun illər tədris müəssisələrində istifadə olunmuşdur.

Bildiyimiz kimi dil xalqın milli varlığını təyin edən ən mühüm amildir. Azərbaycan dili bu gün də müstəqil bir dövlətin dili kimi zənginləşməsində real imkanlara malikdir.

Azərbaycan dilinin tarixi haqqını qazanması 500 illik ağrılardan, əziyyətlərdən sonra ümummilli liderimiz H.Əliyev Azərbaycan xalqının tarixən formalaşmış dili ətrafındakı münasibətləri optimal məcraya yönəltdi.

1995-ci ildə qəbul olunmuş Konstitusiyasında dövlət dili kimi təsbit olundu. 21-ci maddədə deyilir: "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir".

Respublika Prezidentinin 18 iyun 2001-ci il tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", ana dilinin işlədilməsi haqqında 30 sentyabr 2003-cü ildə qəbul olunmuş qanunun həyata keçirilməsi haqqında 2 yanvar 2003-cü il tarixli sərəncamı çox mühüm dövlət sənədləridir.

18 iyun 2001-ci il tarixli Prezident fərmanında deyilir: Azərbaycan Respublikasının Təhsil Nazirliyi orta və ali məktəblərdə Azərbaycan dilinin tədrisi və Azərbaycan dilində təhsilin keyfiyyəti ilə bağlı dönüş yaratmaq istiqamətində qəti təkliflər proqramını bir ay ərzində hazırlayıb təqdim etsin.

4 iyun 2001-ci il tarixdən "Azərbaycan Respublikasının "Dövlət dil Komissiyası haqqında" sərəncam verdi.

9 avqust 2001-ci il tarixli fərmanda Azərbaycan əlifbası və Azərbaycan dili günü təsis edilməsi haqqında qərarlar qəbul edilmişdir: "Hər il avqustun 1-i Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan Dili günü kimi qeyd edilsin".

Bu sənədlər dilimizin saflığının qorunması istiqamətin də çox əhəmiyyətlidir.

Azərbaycan xalqım, millətimin qabaqcıl insanları, qələm sahibləri, alimləri, müəllimləri gəlin ana dilimizi layiq olduğu səviyyədə təmsil edək, öyrənək, öyrədək, qoruyaq, məişət səviyyəsinə enməsinə qoymayaq. Xətai babamızın vəsiyyətini unutmayaq…

"Müdrik əcdadlarımızdan miras qalmış üç şeyi sizə vəsiyyət edirəm:

– Ana dilimizi – Vicdanımızı – Vətənimizi!"

Bu bizim mənəvi borcumuz, insanlıq vəzifəmizdir.

**Ədəbiyyat**

A. Abdullayev. Azərbaycan dilinin tədrisi tarixindən."Maarif" nəşr.,1966.

Ə.Dəmirçizadə. Azərbaycan ədəbi dil tarixi xülasələri. B; 1938.

Q.Kazımov. Azərbaycan dilinin tarixi.(ən qədim dövrdən xııı əsrə qədər).

B; "Təhsil" nəşriyyatı 2003.

A.İ.Məmmədova. Azərbaycan dilinin tarixi. Dərs vəsaiti. B; 2015. Səh.153.

H.B. Balıyev. Azərbaycan dilinin tədrisi metodikası."Qismət", 2014.

Y.Kərimov. Ana dilinin tədrisi metodikası. B:, "Nasir" nəşr.,2003.

A.Rəhimov. Ana dilinin tədrisi metodikası.B:,1987.

8.R.Q.Əşrəfov."Azərbaycan dilinin tədrisinin metodikası.B:. 2022.səh. 33.

# POEZİYAMIZIN BƏXTİYARI



## Xülasə:

***Bəxtiyar Vahabzadə – 100 illiyi münasibətilə xalq şairin yaradıcılığında vətənpərvərlik, vətən sevgisi ideyalarının aşılamnması ilə əlaqədar geniş məlumat verilmişdir.***

***Vətənin əsil vətəndaşı olan şairin qırılmaz tellərlə, xalqına, elinə, obasına bağlılığı təqdim olunur.***

**Açar sözlər:** Bəxtiyar irsi, milli birlik, azad vətən, vətənpərvər insan, vətən sevgisi, vətəndaş

Azərbaycan xalqı dünyaya göz açdığı gündən öz milli varlığını təmsil edərək şəxsiyyətlər yetişdirmiş, onlarla qürur duymuşdur.

Bu gün Şərqdən Qərbə, Qərbdən də Şərqə hər bir türkün sevdiyi şairlərdən biri də B.Vahabzadədir... Bu fikrin isbatına və təsdiqinə ehtiyac yoxdur. Bunu desək də, deməsək də, tarix özü həqiqəti təsdiq edib.

Fikrində, əqidəsində, yaradıcılığında milli dəyərlərimizin daşıyıcısı kimi Azərbaycan şairləri öz xalqını, öz doğma dilini dəlicəsinə sevə bilmək qabiliyyətini Bəxtiyar Vahabzadədən öyrənməlidir. B. Vahabzadə realist şair olub. Onun yaradıcılığında dolaşıq və müəmmalı ifadələr, aydın olmayan fikirlər tapmaq mümkün deyil.

B.Vahabzadə hər hansı bir türkün yaddaşında "şair", "poeziya", şeir ardınca gələn sözlərdən biridir: Nizami, Füzuli, Nəsimi, Rumi, Xətai, Yunis İmrə, Vaqif, Sabir, Hadi, Müşfiq, S.Vurğun, Şəhriyar, N. Hikmət və s.

Bu müqayisədə heç bir mübaliğə görmürəm. Şairlərin böyüklüyünü xalq bilir, xalqın yaddaşı onun sevgisi kimidi.

Bəxtiyar şeiri düşüncəmizi, duyğumuzı dəyişdirmək kimi estetik gücə malikdir. Görkəmli alman şairi Hötenin belə bir kəlamı var: "Yalnız o adamlar yaşamağa və azadlığa layiqdir ki, vətən uğrunda hər gün döyüşə gedirlər".

Bəli, B.Vahabzadə özünü dərk etdiyi gündən məqsədi, əqidəsi yolunda vurğunu olduğu vətəni Azərbaycan uğrunda döyüşə getmişdir.

Senzuranın, yəni qadağaların pambıqla baş kəsən zamanında sözünü demək üçün üzünü kərküklüyə, mərakeşliyə, iraqlıya, hamıya tutub hələ 1959-cu ildə deyirdi:

Şərəfdir ölmək də azadlıq üçün
Bu məslək dəyməzmi bütün dinlərə?
Deyirəm, eşq olsun dünən və bu gün
Azadıq, yolunda can verənlərə!
Dözməmək azadlıq.
Dözməmək əsarət!
Bir günlük azadlıq bir ömrə dəyər!

Bəxtiyar bunları bilir, duyur, görürdü. Bunları intuisiya ilə deyə bilməzdi. Axı, millətin Azadlıq, İstiqlal Bəyannaməsini özü yazırdı. O, yaradıcılığı ilə bizə inam verir, bizi yaşadırdı.

Əllinci illərin sonları... Sovet imperiyasının güc topladığı o illərdə Bəxtiyar Vahabzadə "Gülüstan" poemasını yazdı. Cürət, qeyrət. milli amal insanla birlikdə doğulur, qanda, ilikdə yaranır.

Kağıza həvəslə o da qol atdı
Dodağı altından gülümsəyərək.
Bir qələm əsirlik hicran yaratdı,
Bir xalqı yarıya böldü qılınctək.
Öz sivri ucuyla bu lələk qələm,
Dəldi sinəsini Azərbaycanın.
Başını qaldırdı,
Ancaq dəmbədəm
Kəsdilər səsini Azərbaycanın

Sevimli şairimiz ilk mənəvi zərbəni bu poemadan sonra aldı, amma Bəxtiyar sarsılmadı.

Onun üçün dünya Azərbaycandan başlayır, Azərbaycanla da bitirdi. Bu xalqın dəli divanəsiydi. Həqiqət budur ki, milli birlik, Azərbaycanı vahid görmək ideyası sovet dövründə Bəxtiyar Vahabzadə poeziyasından başlayır.

Vətənpərvərlik mövzusu xalq şairi Bəxtiyar Vahabzadə yaradıcılığının ana xəttidir. Bir ömür boyu vətənin istiqlalı, dili, torpaq uğrunda apardığı söz mübarizəsindən alnıaçıq-üzüağ çıxan şair vətənin azadlığı uğrunda əsl vətənpərvər insan, vətəndaş kimi iz qoymuşdu.

Adımı dəyişin, bilinsin yolum,
Məgər bəxtiyaram, Bəxtiyar olum?
Sinəmə dağ çəkən bir belə dağla
Mən ağlar bəxtimə necə yar olum.
Millət bədbəxtdisə, mən hansı haqla
Mən hansı ürəklə bəxtiyar olum?

Hər qarışı ecazkar, füsunkar gözəlliklər yatağı olan vətənimiz şair üçün müqəddəs bir məkandır.

B.Vahabzadə vətənpərvərlik mövzusunda qələmə aldığı əsərlərində dərdli, nisgilli şairin əhvalı duyulur. Çünki o, parça-parça olmuş vətəndən, ən dilbər guşələri nankor, riyakar düşmənlərin iyrənc fitnələrinə yer olan vətəndən, xalqın göz dağı olan Araz çayı ilə ikiyə bölünərək o taylı, bu taylı damğası ilə damğalanan vətəndən yazır.

Arazın
bu tayı vətənim,
o tayı vətənim,
Vətəni görməyə amanım yox mənim,

- deyən şair bir ömür boyu ikiyə bölünmüş vətənin ağrısı ilə yaşadı. Şair vətənimiz olsa da, gedə bilmədiyimizin, tikanlı məftillərin ayırdığı ellərimizə bir salam belə verə bilmədiyimizin kədərini ürəyində daşıyırdı. Bu əsərin sonunda şairin öz dərdini Füzuli dərdi ilə müqayisə etməsi bu həsrətin nə qədər ağır, sonsuz, çəkilə bilməyən olmasının isbatıdır:

Füzuli həsrətlə qürbətdən vətənə baxırdı.
Mən isə...
Vətəndən-vətənə baxıram.

B.Vahabzadənin yaradıcılığında zaman və Vətən anlayışı bir də işıq anlayışı ilə bağlıdır. Od, işıq-bizim poetik ənənəmiz üçün bəlkə də ən qədim, ən davamlı bir obrazdır.

İşıq-ümid və vətən rəmzi kimi məlumdur. Şair bu obraza yeni məna çalarlığı əlavə edib. Hər şeyi zamanla ölçən şair zamanın da "ömrünü" işıq, "işığın ömrü" ilə əlaqələndirməyə çağırır:

Söndürmə çırağı!
Çıraq yananda
Elə bilirəm ki, gün qurtarmayıb,
Söndürmə çırağı, yansın
Qoy günüm uzansın, nəşəm uzansın

B.Vahabzadə da sərhədsiz dünya istəyir, gözəl ömür fikirləşir. Şair sərhədsiz dünya yaradan insana sərhədsiz də ömür və əməl arzulayır.

Mən sahili olmayan dənizlər istəyirəm,
Mən axşamı olmayan gündüzlər istəyirəm!

Yaxud:

Sonu olan ömrü istəmirəm mən,
Çıxaydım zamanın çərçivəsindən

Yazıçı Mehdi Hüseyn vaxtilə B. Vahabzadə haqqında yazdığı məqalədə təsadüfü olmayaraq "narahat şair" adlandırmışdır.

Özü də narahatlıq – bu poeziyanın yalnız əlaməti deyil, həm də predmetidir: şair bir neçə şeirində "narahatlığı" işıq, hərəkət, həyat və dirilik təcəssümü kimi tərənnüm edir:

Dünyada yaşamayan dünyadan dinclik umar,
Yanmağında tapmalı dincliyini sənətkar!

Aşağıdakı misraları isə bütünlükdə Bəxtiyar şeirinin estetik və əxlaqi devizi kimi qəbul etmək olar:

Yaşamaq yanmaqdır, yanasan gərək.
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır demək.
Onun da həyatı yanmağındadır.

Bəxtiyar Vahabzadə yaradıcılığına belə canlı pafos verən, onu şöhrətləndirən və sevdirən başlıca səbəb vətən sevgisi, yurdun hər qarışından aldığı ilham və özünün əsl «vətən daşı» olduğunu dərk etdiyi zövqdür.

Vətəninin əsl vətəndaşı olan şair qırılmaz tellərlə, canlı rişələrlə xalqına, elinə-obasına bağlıdır. B.Vahabzadə poeziyası məhz xalqdan, torpaqdan güc aldığı üçün böyükdür,

əzəmətlidir, müqayisə olunmazdır.

Vətəninə, yurduna-yuvasına bağlılıq, vətəndaşlıq pafosu B.Vahabzadə yaradıcılığının əsas xüsusiyyətidir. Onun vətənpərvərlik şeirlərindən danışarkən «Azərbaycan oğluyam» şeiri xüsusi vurğulanmalıdır. Şeirdə vətənpərvərlik ideyası qabardılaraq ön plana çəkilir. Burada eyni zamanda qədim türklərin dünyagörüşlərinin, inanclarının öz bədii əksini tapması da diqqətə layiqdir.

Şeir bu misralarla başlayır:

Azərbaycan oğluyam,
Odu Allah sanmışam.
Anam torpaq, atam od -
Mən oddan yaranmışam.

Bu misralar bir növ dünyanın dörd qütbünə səpələnmiş türk xalqlarının kimliyidir. Əski türk inanclarına görə, insanın yaranmasında Ata başlanğıc Günəş, od, istilik və Ana başlanğıc Torpaq başlıca rol oynayır. Yaradıcı qüvvə olan Günəşin Torpağa istilik verməsiylə insan yaranmışdır. Böyük ehtimalla söyləyə bilərik ki, şair bu misraları qələmə alarkən məhz həmin türk inanclarına istinad etmişdir.

Azərbaycan oğluyam,
At belində doğuldum;
Zamanın qazanında
Neçə dəfə dağ oldum. – deyərkən şair yenə də xalqımızın şanlı, keşməkeşli tarixinə işarə edir. Ta qədimlərdən bu günə analarımız oğulu vətən üçün, onun təəssübünü çəkmək, namusunu qorumaq üçün böyüdüblər. Övlad vətən yolunda şəhid olarkən bu dözülməz dərdi qəlblərinə gömərək vətənin varlığı ilə təskinlik tapıblar.

Analar oğulları cəngi sədaları altında qundaqlayarkən onun ruhuna vətən eşqinin toxumunu səpib. Bax, beləcə, ruhumuzda bir vətəndaşlıq hissi yer alıb. Sağalmaz yaramız olan vətəndə vətənsizlik dərdimiz bu şeirdə də şairin köksündə qövr edərək bu misralara çevrilmişdir:

Neyləyək ki...
zamanın
Uğursuz yollarında
İkiyə bölünmüşəm,
İki başlı, bir qəlbli
Bir bədənə dönmüşəm.

Amma, şair üçün bu bölünmə sadəcə tikanlı məftillərdə, bir də kağız üzərindədir. Onun üçün Bakı, Təbriz elə birdir və hər ikisi Məkkə, Mədinə qədər müqəddəsdir.

Həm Təbriz, həm Bakıdır
Məkkəm, Mədinəm mənim. – deyən şairin bütöv bir xalqın işıqlı sabahına bəslədiyi böyük ümidləri diqqətdən yayınmır.

Bəzən kimsə öz vətəninə, xalqına xəyanət edir. Bunun səbəbi odur ki, həmin şəxs ana südü ilə yox, süni qidalarla qidalanıb. Onun qanında doğulduğu torpağın heç bir elementi olmadığı üçün o xəyanətkar bir iblisə çevrilir.

Özgə anasından süd əmənləri
Özgə qullugunda duran görmüşəm.

Yaxud da:

Bütün diləklərimin ən saf diləyi şeirim.
Vətənini, elini danan tüfeylilərin
Vətənçin yox,
manatçın yanan tüfeylilərin
yumruğa dön başında.
Keşikçi ol bu yurdun torpağında, daşında
Vüqarı ol, əzmi ol əyilməyən başların,
Qəlbində mərmiyə dön əsil vətəndaşların.

B.Vahabzadə «Şair-vətən» şeirində bu fikri daha da inkişaf etdirərək belə deyir:

Bəlkə də ən zəif, ən kiçik şair
Böyük vətəndaşdır Vətənimizə

Bəxtiyar Vahabzadə burda şair dedikdə bir fərdi yox, bütün vətəndaşları nəzərdə tutur. çünki şeirin davamında şairin - insanın vətənlə bağlılığı aşağıdakı kimi xarakterizə olunur:

Şairin bədəni - bu ana torpaq,
Nəfəsi - xəzridir, qanı - Kür, Araz.
Cox şey vətənsiz də yaşayır, ancaq
Şeirsə Vətənsiz, elsiz yaşamaz...

Bəzi nadan, vicdansız, xəbis, xəyanətkar, vəzifəpərəst insanlar olur ki, başqalarına quyruq bulamaq üçün öz evini, elini, hətta vətənini satmağa hazır olurlar. Şair onları belə ifşa edir:

Vətəni pul kimi cibinə dürtən
Bir rüşvət düşkünü, rütbəli nadan
Durub kül üfürür gözlərimizə.

Vətənin sevməyin «qaydalarından”
Utanmaz-utanmaz dərs deyir bizə

Belələri odlu-alovlu çıxışları ilə xalqı mübarizəyə səsləsələr də, sonda ona xəyanət edərək yadellilərin ağuşuna sığınıb, xalqı mübarizə meydanında tək qoyublar.

Bunlara şair belə cavab verib:

Vətəni sevməkdə nə qayda, qanun?
Vətən sevgisinin hüdudu varmı?
Ey nadan, ölçülər özünün olsun,
Məhəbbət ölçüyə, həddə sığarmı?

Doğrudan da əsl vətəndaşın doğulduğu torpağa, ata-babalarının qəbri olan bir məkana, anasının beşik başında nəğmə söylədiyi bir ocağa, övladının iməkləyərək ilk addımlarını atdığı yurda olan sevgisi heç nə ilə müqayisə oluna və ölçülə bilməz.

İndiki dövrdə də Azərbaycanda bəzi müəssisələrdə xarici dil bilməyənləri işlə təmin etmirlər. Şair 1967-ci ildə yazdığı «Riyakar» şeirində bunu tam çılpaqlığı ilə ifadə etmişdir.

Vətənin dilinə gərəksiz deyən
Vətənin özünü necə sevir bəs?
Vətən qeyrətini çəkməyən oğul
Həm özünə yükdür, həm özgəsinə;
Bu dildə dərs deyib qazandığın pul,
Yediyin çörək də haramdır sənə!

Bəxtiyar sözünə aşiq və vaqif olanlar yüzlərlə, minlərlə deyil, milyonlarladır. Milyonların könül taxtında oturan o müqəddəs şair-söz bahadırı Bəxti yar olmuş Bəxtiyar Vahabzadədir.

O, söz-söz, kəlmə-kəlmə zəmanəsinin aynasını yaratdı. Bu aynanın hissəcikləri bir sevgidən başlayaraq Vətənlə, millətlə, Ana dililə, nəhayət, Azərbaycana sevgi ilə bütövləşən Ilahi məhəbbətdən yoğrulub. Həmin aynada Bəxtiyar dünyası yaşayır.

Şairin poeziyasında ümummilli vəhdət nidası ilə sanki ana Vətən dilə gəlib söyləyir:

Dayaq olsun bu gün gərək sol sağa.
Bu vəhdətdən yurdumuza gün doğa.
Bütün millət dönməliykən yumruğa,
Türkün türklə ədavətə haqqı yox.

Bütün yaradıcılığı boyunca şairi ən çox düşündürən zaman problem olub. Keçmişi və gələcəyiindəki zamanın üzərində cəmləşdirmək bacarığı, bu gündən sabaha baxmaq istəyi B.Vahabzadə poeziyasının fəlsəfi məzmununu daha çox ifadə edir.

Qocaldır insanı, qocaldır zaman,
Ürəyin atəşi, közü qocalmır.
Dağları daşları qocaldan zaman,
Bilmirəm, bəs niyə özü qocalmır?

Bəli, dünya öz işində, zaman öz axarında…İnsanlar doğulur, böyüyür, qocalır, haqq dünyasına qovuşur. Ancaq dünyanın və zamanın öz yaşatdıqları da var: Bəxtiyar Vahabzadə kimi, Bəxtiyar Vahabzadənin ölməz yaradıcılığı, əbədi insan sevgisi və milli təəssübkeşlik duyğusu kimi!

Böyük sənətkarlar dünyaya günəş kimi doğulurlar. Şair ömrünün işığı bir başa könülə, qəlbə, ruha düşür. Necə ki, Bəxtiyar Vahabzadə ömrünün işığı qəlbimizi, ruhumuzu sardı, hər dəfə yolu gözlənilən günəş kimi düşüncələrimizi işıqlandırdı. Günəş kimi doğulanların yolu isə həmişə gözlənilndi.

**Ədəbiyyat**

B. Vahabzadə. Seçilmiş əsərləri. C-2. Bakı, 2004. səh. 76.
B. Vahabzadə. Seçilmiş əsərləri. C-2. Bakı, 2004. səh. 132.
B. Vahabzadə. Seçilmiş əsərləri. C-1. Bakı, 2004. Səh.16-17.
B. Vahabzadə. Seçilmiş əsərləri. C-1. Bakı, “Yazıçı” nəşriyyatı. 1983. səh.65.
B. Vahabzadə. Seçilmiş əsərləri. Bakı, “Elm” nəşriyyatı. 2008. səh.182.
B. Vahabzadə. Seçilmiş əsərləri. Bakı, “Elm” nəşriyyatı. 2008. səh. 198-199.
B.Vahabzadə. Seçilmiş əsərləri. C-1. Bakı, “Öndər” nəşriyyatı. səh. 42-43.
B. Vahabzadə. Əsərləri. (1960-1969). Bakı, ”Elm” nəşriyyatı. 2008. Səh.25.
B. Vahabzadə. Əsərləri. C-2. Bakı. “Elm” nəşriyyatı. 2008. səh. 601.

**Güldanə MEHDIYEVA**
***Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Pedaqoji Tədqiqatlar Mərkəzinin Təşkilati şöbəsinin baş mütəxəssisi***
***E-mail: güldana.mehdiyeva@arti.edu.az***